Fərman Nəbiyev
«Quzunu qurda tapşıranda…»
Mingəçevir işıqları № 14 (5944) 13-19 aprel 2003

**«Həmkarların qovluğu itib və yoxlama sona çatanadək tapılmadı…»**

***Biz onu qiyabı tanıyırıq. Hörmətli müəllim kimi şəhərdə ad çıxarıb. Övladlarının yaxşı təhsil almasını arzu edənlər direktorun yanına gəlir və təkidlə bildirirlər: «Uşağımı Rahilə müəllimənin sinfində oxutmaq istəyirəm…»***

1994-cü ilin yanvar ayında Rahilə Həsənovanı 2 saylı orta məktəbə direktor müavini təyin edirlər. 1999-cu ilin aprelində isə məktəbin direktoru Vəlyəddin Yolçuyev onu tutdüğü vəzifədən kənarlaşdırır. Əslində xeyli əvvəl direktorla müavin arasında narazılıq yaranmışdı və bu məktəbin hüdudlarından kənara çıxmışdı. R.Həsənova məktəb rəhbərini avadanlıqları bilərəkdən yararsız vəziyyətə salmaqda, tədris prosesi ilə bağlı saxtakarlıqlar etməkdə günahlandırırdı.

O, bütün bunları açıqlayaraq, təhsil şöbəsi yanındakı şuranın məsələni obyektiv müzakirə edəcəyinə və ən başlıcası, pozuntuların qarşısını alacağına inanırdı. Lakin şura üzvləri qəribə bir qərar çıxartdılar: «Direktora şiddətli töhmət verilsin, müavinin vəzifədə qalıb-qalmaması məsələsi isə direktora həvalə edilsin».

«Məsuliyyət, yoxsa vəzifə» dilemması qarşısında qalan V.Yolçuyev ikincini seçdi. O qərarı əsas tutaraq, «məktəbdə münaqişə yaratdığı üçün» R.Həsənovanı işdən azad etməyə «fürsət» tapdı. Bundan sonra Rahilə müəllimə məhkəmələrə, prezidentə, baş prokurora, təhsil nazirlinə və digər instansiyalara üz tutdu.

Minqəçevir təhsil şöbəsinin inspektoru Mahmud İsmayılovun sədrliyi ilə 99-cu il fevralın 27-dən martın 11-dək məktəbdə yoxlama aparıldı və 10 səhifəlik arayış hazırlandı.

*«… Hər iki rəhbər arasında olan münaqişə pedaqoci prosesin gedişinə ziyan vurmuş, kollektivdə özbaşınalığa səbab olmuşdur. Rəcəbova Leyla (8b), Məmmədova Həmayə (8a), Adilov Vüqar, Cəfərova Həyalə və Cəfərov İlyasın bilikləri fənn müəllimləri tərəfindən qiymətləndirilməsinə baxmayaraq, məktəbə davam etmələri şübhəlidir və yoxlama günlərində həmin şagirdlər məktəbdə yox idi… Məktəbdə müxtəlif tədbirlərə və qəzet satışına pul yığılması məsələsi yalnız Azərbaycan Respublikasının Təhsil Nazirliyinin 04.01.99-cu il tarixli 2 saylı əmrindən sonra dayandırılmışdır. Məktəbin müəllimlərindən F.Əsgərovanın və F.Abdullayevanın məktəbin sinif otağından istifadə edərək, pulla uşaq hazırlamaları faktını sona qədər araşdırmaq mümkün olmadı.*

*Məktəbin «Çinar» markalı soyuducusu qəbul otağındadır, işləmir, üstündə mühərrik vardır. Pianino qəza vəziyyətində olan anbar adlanan otaqdadır və tam yararsızdır.*

*…Məktəbin həmkarlar təşkilatı 1996-cı ilin mart ayında keçirdiyi heyət iclasında R.Həsənovanın əmək intizamına və şifahi tapşırıqlara əməl etməməsi məsələsini müzakirə etmiş, hətta onun işdən azad edilməsinə rəhbərliyə icazə vermişdir. Lakin sənədlərin əsli və protokollarla tanış ola bilmədik. HT-nın sədri M.Abdullayev məlumat verdi ki, həmkarların qovluğu itib və yoxlama sona çatanadək tapılmadı…»*

Mingəçevir Təhsil şöbəsi rəhbərliyinin Mingəçevir şəhər prokuroruna 05 avqust 1999-cu il tarixli məktubundan:

*«…Lakin bütün məktəbin yoxlama yazı və imtahan işləri məktəbdən yoxa çıxdığından və adıları göstərilən şagirdlər hal-hazırda şəhərdə yaşamadıqlarına görə, məsələni axıra araşdırmaq qeyri-mümkündür…»*

Və nəhayət, Ali Məhkəmədən 09 noyabr 1999-cu ildə Rahilə Əlеddin qızı Həsənovanın ünvanına göndərilmiş məktubdan:

*«Müzakirə nəticəsində işlərində ciddi nöqsanlar aşkar edildiyinə görə, məktəbin direktoru V.Yolçuyevə şiddətli töhmət verilmiş, sizin direktor müavini vəzifəsində qalib-qalmaması məsələsini həlli etmək məktəbin direktoruna həvalə edilmişdir. 30 mart 1999-cu ildə məktəb həmkarlar komitəsinin yığıncağı olmuş, həmkarlar komitəsi sizin tutduğunuz vəzifədən azad edilmənizə razılıq vermiş, məktəb direktorunun 5 aprel 1999-cu il tarixli əmrilə siz üzərinizə düşən vəzifələri layiqincə yerinə yetirmədiyiniz üçün tutduğunuz vəzifədən Əmək Məcəlləsinin «q» bəndi ilə azad edilmişsiniz».*

Bu da qanunun aliliyini gözləməli olan məhkəmənin hökmü! Əslində ali məhkəmə Mingəçevir təhsil şöbəsi yanındakı şuranın qərarını «öz sənədi» kimi – heç bir araşdırma aparmadan təqdim etmişdir. Şikayətə baxmalı olan tərəflərin heç biri belə bir fakta diqqət yetirməmişlər ki, direktor müavininin təşəbbüsüylə müzakirəyə çıxanları məsələdən sonra şiddətli töhmət alan (bundan sonra vəzifəsindən çıxarılmalı olan) direktora onun «maskasını» cıran adamın işdə qalıb-qalmamasını həvalə etmək «qurda qoyunu tapşırmaq» kimi bir şeydir. Sənədlərin saxlamağı bacarmayan (çox güman ki, adı çəkilən protokollar yerlidibli olmayıb) həmkarlar təşkilatı sədrinin isə çətin ki, səmimiyyətinə inanan tapıla. Adətən müdirlərin çaldıqları zurnaya oynayan «həmkarlar» sıravi adamların «ölümünə» çox həvəslə imza atırlar.

Bütün hallarda faktları axıradək araşdıra «bilməmişlər». Doğrusu, bu, onlara sərf etməyib. Surətini təqdim etdiyimiz arayışlardan göründüyü kimi, bu uşaqlar ailələri ilə birgə 1997-ci ildən Rusiyadadır. Lakin məktəb curnalında adları olub, hər rübün və ilin yekunlarına görə onlara qiymətlər yazılıb. Təkcə bu hala görə, məktəb direktorunu və həmin işə qol qoyanları cinayət məsuliyyətinə cəlb etmək mümkündür.

**Bu gün qadını zərbə altında qoymaqla günahlarını gizlətməyə çalışan kişiyə haqq qazandıranları başa düşmək çətin deyil. Xüsusən də o kişi məktəb direktoru ola… Belələrinin əli ilə sinif ləvazimatlarını və avadanlıqları satdırmaq, təmir və qəzet adı ilə pul yığdırmaq, məktəbdə yerləşən məntəqələr üzrə seçkiləri saxtalaşdırmaq mümkündürsə, niyə onları himayə etməsinlər? Ancaq bu gedişlə nə bu məktəb direktorları, nə də onların havadarları çətin ki, üzümüzə gələn qışa çıxa bilələr…**